# Azərbaycanla əməkdaşlığa xüsusi önəm verilir

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Birləşmiş Millətlər Təşkilatının (BMT) Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya Regionu üzrə direktorunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib***



**Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu sosial-iqtisadi inkişaf strategiyasının BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn öhdəliklərin icrasında ölkəmizdə mühüm addımların atılmasına imkan verdiyini vurğulayıb.**

Nazir ölkəmizdə demoqrafiya və əhali sakinliyi sahəsində müsbət vəziyyətin mövcud olduğunu vurğulayaraq bu sahədə təkmil əsaslara söykənən siyasətin hazırlanması və həyata keçirilməsində BMT-nin Əhali Fondu ilə ardıcıl və səmərəli əməkdaşlığın formalaşdığını qeyd edib. O, xüsusilə "Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramının (2018-2030-cu illər)" layihəsinin hazırlanmasında, demoqrafik vəziyyətin qiymətləndirilməsi və dolğun proqnozlar sisteminin yaradılmasında bu əməkdaşlığın önəmini diqqətə çatdırıb.

BMT-nin Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Alanna Armitaj Azərbaycanda demoqrafik proseslərin inkişafının, əhalinin sabit artım tempinin, mövcud resursların əhalinin kəmiyyət və keyfiyyət artımının təmin olunmasına səfərbər edilməsinin, bu yöndə siyasətin təkmilləşdirilməsi üçün aparılan işlərin təqdirəlayiq olduğunu bildirib. O, BMT-nin Əhali Fondunun bu sahələrdə Azərbaycanla əməkdaşlığı davam etdirməyə xüsusi önəm verdiyini ifadə edib.

**Mustafa KAMAL,**
**"Respublika".**